# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

02 (54) 12 fevral 2016-cı il | İctimai-siyasi qəzet | Qiymәti: 50 qәpik


## 1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması və "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə qərara alıram:

1. 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 10 faiz artırılaraq, 2016-cı il fevralın 1-dən 110 manat müəyyən edilsin.

2. "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 708; 2013, № 12, maddə 1601; 2014, № 4, maddə 437) 1-ci hissəsində "100 (yüz)" sözləri "110 (yüz on)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 25 yanvar 2016-cı il.**

# İlham Əliyev Londonda "Suriyaya və regiona dəstək" konfransında iştirak edib

**Londonda "Suriyaya və regiona dəstək" konfransı keçirilib.**

***Prezident İlham Əliyev BMT-nin baş katibi Pan Gi Munun, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun, Almaniya Federativ Respublikasının Kansleri Angela Merkelin, Norveç Krallığının Baş naziri Erna Solberqin və Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın dəvəti ilə konfransda iştirak edib.***

Böyük Britaniya, Almaniya, Küveyt, Norveç və Birləşmiş Millətlər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən konfransda Suriyaya təcili və uzunmüddətli yardımın təmin edilməsi, regionda humanitar və təhsil layihələrinin reallaşdırılması, böhrandan əziyyət çəkən qaçqınların sosial problemlərinin həll olunması, onları qəbul edən ölkələrə dəstək göstərilməsi məsələləri müzakirə edilib.

Dövlət başçısı konfrans çərçivəsində keçirilən "Təhsil" mövzusunda sessiyada çıxış edib.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

-Zati-aliləri, xanımlar və cənablar.

Biz Suriya qaçqınlarının halına çox acıyırıq. Müstəqillik illərində - 1990-cı illərin əvvəlində qonşu Ermənistan Azərbaycana qarşı təcavüz edəndə Azərbaycan özü humanitar fəlakət və böhrandan əziyyət çəkib. Bu təcavüz nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olundu. Biz etnik təmizləməyə məruz qaldıq. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.

Bu, həqiqətən də humanitar fəlakət idi. O zaman ölkəmiz çox gənc və kasıb idi. Həmin vaxt adambaşına düşən qaçqın sayına görə ən yüksək göstərici olan səkkiz milyon əhalidən bir milyonu evsiz və işsiz qalaraq, yaşayış imkanlarından məhrum olmuşdur. Biz beynəlxalq humanitar təşkilatlara, xüsusilə tariximizin çətin məqamında bizə dəstək olan BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına minnətdarıq.




Bu gün Azərbaycan özü donor ölkədir. Biz, Suriya qaçqınları da daxil olmaqla maliyyə yardımını təmin edirik. 1994-cü ildə Azərbaycan ilə Ermənistan arasında atəşkəs rejimi müəyyən edilmişdir. Əfsuslar ki, o vaxtdan bəri danışıqlar masası ətrafında bu münaqişənin həlli ilə bağlı ciddi irəliləyişə nail olunmamışdır. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, 20 ildən artıqdır ki, Ermənistan tərəfindən bu qətnamələrə məhəl qoyulmur.

Lakin 1994-cü ildə atəşkəs razılığının əldə olunması bizə inkişaf etmək imkanını verdi. O vaxtdan bəri Azərbaycanın inkişafı çox sürətli olub. Biz demək olar ki, 250 min qaçqını lazımi ev şəraiti ilə təmin edə bildik. Bizdə qaçqınlar da daxil olmaqla 100 faiz savadlılıq səviyyəsi var. On il bundan əvvəl qaçqınların təxminən 70 faizi yoxsulluq şəraitində yaşayırdı. İndi isə qaçqınlar arasında yoxsulluq səviyyəsi yalnız 12 faiz təşkil edir. Ümumilikdə işsizlik və yoxsulluq 5 faizdir. Mən bu göstəriciləri nəyə görə sizin diqqətinizə çatdırıram? Çünki ölkə yalnız sabitlik və sülh şəraitində inkişaf edə və böyük çətinliklərin öhdəsindən gələ bilər.

Bu gün biz bir çox çıxışları və yardım çağırışlarını dinlədik. Azərbaycan Suriyada humanitar inkişafa artıq töhfə vermiş və verəcək ölkələr arasındadır. Lakin ən əsası sülh, atəşkəs, siyasi həllin tapılmasıdır. Yalnız bundan sonra iş yerləri açılacaq, təhsil istənilən səviyyədə olacaq və insanlar öz gələcəyinə inanmağa başlayacaqlar. Biz bu böyük iqtisadi və sosial çətinliklərdən əziyyət çəkmiş bir ölkə kimi buna necə nail olmağın yolunu bilirik. Biz iş yerlərinin yaradılmasında təcrübəmizi paylaşa bilərik. Son on illikdə Azərbaycanda 1,5 milyon iş yeri yaradılmışdır. Biz təhsil sahəsindəki təcrübəmizi də paylaşa bilərik. Ölkəmizdə 3 mindən çox məktəb inşa edilmişdir və dediyim kimi, Azərbaycanda 100 faizlik savadlılıq səviyyəsinə nail olunmuşdur. Humanitar böhranın idarə olunması üzrə təcrübəmizi də paylaşa bilərik və biz bunu edəcəyik. Lakin ən önəmlisi sülhdür. Buna görə də Suriya böhranı üzrə siyasi həllin mümkün qədər tez tapılması bizim gündəliyimizdə duran bir nömrəli məsələdir. Əminəm ki, bu gün apardığımız müzakirələr həmin siyasi həllin tapılmasında öz vacib rolunu oynayacaqdır. Bu gün Azərbaycan əsaslı maliyyə və iqtisadi potensialı olan bir ölkə kimi buna sülh deyil, yalnız atəşkəs şəraitində nail ola bilmişdir.

Əlbəttə ki, biz Suriyadakı bacı və qardaşlarımıza dəstək olmaqda davam edəcəyik. Biz Suriya qaçqınlarını qəbul etmək üçün üzərinə belə böyük bir yükü götürən ölkələrə minnətdarıq. Bir daha qeyd etmək istəyirəm, biz buraya sülhü və bu cür dəyərləri təşviq etmək üçün gəlmişik. Bu baxımdan Azərbaycan öz vacib rolunu oynamağa davam edəcəkdir.

**Veteranlar həmvətənlərimizi həmrəy olmağa çağırır**



Səh.3

**Xocalı Soyqırımı**




Səh. 5

**GƏNCLƏRİN HƏRBİ-VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏSİ YENİ NƏSLİN TƏRBİYƏSİNDƏ MÜHÜM AMİLLƏRDƏN BİRİDİR**

Səh. 6

AZƏRBAYCAN
VETERANI

## İlham Əliyev Londonda Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviç ilə görüşüb



Prezident İlham Əliyev Londonda "Suriyaya və regiona dəstək" konfransı çərçivəsində Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq bildirildi. İqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsində, enerji, nəqliyyat və infrastruktur layihələrinin həyata keçirilməsində qarşılıqlı maraq ifadə olundu.

Azərbaycan Prezidenti İlham Əliyev böyük İpək Yolu və "Cənub" qaz dəhlizi layihələrinin həyata keçirilməsi istiqamətində görülən işlərdən danışdı.

Söhbət zamanı birgə layihələrin reallaşdırılması ilə bağlı qarşılıqlı razılığın əldə edilməsinə dair fikir mübadiləsi aparıldı.

## Multikulturalizm Azərbaycanın həyat tərzidir

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "Multikulturalizm ili" münasibətilə "Multikulturalizm Azərbaycanın həyat tərzidir" adlı kitab sərgisi açılıb.

Kitabxananın direktoru, professor Kərim Tahirov Prezident İlham Əliyevin 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etdiyini xatırladaraq Azərbaycan multikulturalizmin beşiyi olduğunu qeyd edib. Azərbaycanın tarix boyu beynəlmiləl dövlət olduğunu vurğulayaraq deyib ki, uzun illərdir ölkəmizdə müxtəlif millətlərə mənsub insanların birgəyaşayış şəraitində tolerant həyat tərzi mövcuddur. Qeyd edib ki, ölkədə hər zaman azsaylı xalqlara, onların milli-mənəvi dəyərlərinə, adətlərinə hörmətlə yanaşılır.

Təşkil edilən sərginin bir mesaj olduğunu diqqətə çatdıran K.Tahirov sərginin daimi olacağını, guşə kimi fəaliyyət göstərəcəyini söyləyib. Bildirib ki, il ərzində müxtəlif təşkilat və nəşriyyatlar tərəfindən bu səpkidə dərc edilən bütün materiallar guşədə toplanaraq nümayiş olunacaq və oxucuların istifadəsinə veriləcək.

Direktor qeyd edib ki, kitabxana tərəfindən multikulturalizmin özündə ehtiva etdiyi məsələlərdən bəhs edən vəsait hazırlanır.

Mədəniyyət və Turizm Nazirliyinin sektor müdiri Aslan Cəfərov ölkəmizdə müxtəlif millətlərin milli-mənəvi dəyərlərinin qiymətləndirildiyini vurğulayaraq dövlət səviyyəsində tədbirlərin, azsaylı xalqların mədəniyyət festivallarının keçirildiyini bildirib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) analitik şöbəsinin müdiri Nəriman Qasımzadə çıxış edərək mərkəz tərəfindən ölkəmizdə və xaricdə Azərbaycan multikulturalizminin fənn kimi tədris edildiyini vurğulayıb.

Bildirib ki, Azərbaycan multikulturalizmi sözünün arxasında çox böyük mədəniyyət, ədəbiyyat, tarix dayanır. Multikulturalizm özündə fərqli düşüncələrə, inanclara sahib etnik, dini qrupların və yaxud da fərqli mədəniyyət daşıyıcılarının bir yerdə, eyni dövlətin ərazisində yaşayaraq bir-birini zənginləşdirməsini, sülh şəraitində yaşamasını, eyni zamanda belə bir duruma yönəlik dövlət siyasətini ehtiva edir.

Azərbaycan multikulaturalizminin dünya modelləri arasında xüsusi yeri olduğunu söyləyən N.Qasımzadə qeyd edib ki, ölkəmizdə multikulturalizmin siyasi, mədəni, ədəbi qaynaqları çox zəngindir.

Şöbə müdiri BBMM tərəfindən "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabının çap olunduğunu vurğulayaraq sərgidə bu kitabın da nümayiş etdirildiyini deyib.

Çıxış edənlər belə bir sərginin təşkilinin "Multikulturalizm ili"nə böyük töhfə olduğunu söyləyiblər.

Sonda tədbir iştirakçıları sərgi ilə tanış olublar.

**AZƏRTAC**

# Vətənin müdafiəsinə hazıram!



**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) Azərbaycan Respublikası vətəndaşlarının hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, yeniyetmə və gənclərdə vətəndaşlıq hisslərinin yüksəldilməsi, onların ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq ruhunda yetişdirilməsi sahəsində mütəmadi olaraq ictimai tədbirlər həyata keçirir.**

SHXÇDX-dan bildiriblər ki, fevralın 5-də Dövlət Xidməti və Qaradağ Rayon İcra Hakimiyyəti "Vətənin müdafiəsinə hazıram!" mövzusunda tədbir keçirib.

Tədbir iştirakçıları əvvəlcə müasir müstəqil Azərbaycan dövlətimizin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, Qaradağ rayonundakı abidəsi önünə gül dəstələri düzüblər.

Lökbatan qəsəbəsindəki Əli Əmirov adına Mədəniyyət Sarayında keçirilən tədbirdə Qaradağ Rayon İcra Hakimiyyətinin nümayəndələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qaradağ rayon idarəsinin şəxsi heyəti, "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli, "Əfqanıstan Müharibəsi Veteranları" İctimai Birliyinin sədri Məhəmməd Vəliyev, şagirdlər, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi veteranları iştirak ediblər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, general-mayor Novruzəli Orucov bildirib ki, əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu ordu quruculuğu prosesi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Görülmüş işlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri regionun ən qüdrətli ordusuna çevrilib.

Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini Emil Abbasov çıxışında gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində belə tədbirlərin əhəmiyyətini qeyd edib.

Respublikamızın ərazi bütövlüyü uğurunda döyüşlərdə şəhid olmuş, Azərbaycanın Milli Qəhrəmanı Cəmil Niftəliyevin anası Səlməgül Niftəliyeva, Qarabağ müharibəsi veteranı Novruz Quliyev çıxışlarında gənclərə Vətəni qorumağın müqəddəs vəzifə olmasından danışıblar.

Sonra şəhid ailələrinin üzləri, veteranlar, çağırışaqədərki hazırlıq rəhbərləri, hərbi hissələrdən birində nümunəvi xidmət edən əsgər, eləcə də "Çağırışaqədərki hazırlıq" fənnində yüksək nailiyyət göstərən şagirdlər mükafatlandırılıblar.

Tədbirin bədii hissəsində Qaradağ rayonundakı müxtəlif məktəblərin şagirdləri və vətənpərvərlik mahnılarının mahir ifaçısı Şəmistan Əlizamanlı maraqlı konsert proqramı ilə çıxış ediblər.

**AZƏRTAC**

## Muzey ekspozisiyası Stalinqrad uğrunda döyüşən azərbaycanlılara həsr edilib

**Volqoqradda Stalinqrad döyüşündə iştirak edən azərbaycanlılara həsr olunmuş muzey ekspozisiyası açılıb. Rusiya-Azərbaycan Dostluq Mərkəzinin mətbuat xidmətindən bildiriblər ki, ekspozisiyanın stendlərində silahlar və hərbi biletlər, şinellər və cəbhədən məktublar təqdim edilib.**

Qəhrəman azərbaycanlıların adlarını həm vətəndə, həm də Rusiyada xatırlayır və ehtiramla yad edirlər. Amma sərgidə nümayiş etdirilənlər onların hər gün döyüş meydanlarında göstərdikləri, barəsində mahnılar qoşulmayan, amma gələcək nəsillərin mütləq bilməli olduqları igidliklərin şahididir.

Stenddə qarabuğdayı oğlanın fotoşəkli asılıb. Fətulla Həmidov cəbhəyə 16 yaşında gedib. Gedən kimi də Stalinqrad cəbhəsinə göndərilib. DİN veteranı, milis mayoru Əli Həmidov kədər hissi ilə bildirir ki, atası nəvələrini görmədən dünyadan köçüb: cəbhədə aldığı yaralar aman verməyib. Gənc döyüşçü ilk dəfə elə Stalinqrad ətrafında yaralanıb və "Şöhrət" ordeninə layiq görülüb. Mükafat vərəqəsində yazılıb: "Yoldaş Həmidovun pulemyotu düşmənin başına ölüm ələyirdi. O, cinahda yer tutaraq pulemyot atəşi ilə birinci atıcı bölüyün həmləsini qoruyur, onun irəliləməsinə şərait yaradırdı".

General Rodenburqun qənimət götürülən zabit kortiki gənc nəslə xatırladır ki, "Ölüm sarayı"nda saxlanılan uşaqları azad edən qrupa rəhbərlik etmiş böyük leytenant Həmzə Sadıqov daha sonra alman generalının əsir alınmasında iştirak edib.

Azərbaycan xalqının qəhrəmanlıq nümunələrinin sayı-hesabı yoxdur. RADM direktorunun müavini Denis Yakimenko bildirib ki, Azərbaycandan olan 20 yaşlı leytenant Mixail Kabribovun başçılığı ilə özbək və qazaxlardan ibarət taqım yüksəklikləri ələ keçirib müdafiə etməklə misli görünməmiş qəhrəmanlıq nümunəsi göstərib. Ekspert deyib: "Düşmənin atəş nöqtəsini susduran əsgərlər yüksəkliyi ələ keçirəndə cəmi 11 nəfər qalmışdılar. M.Kabribovun dəstəsi sonuncu gülləsinədək vuruşdu. Sonra düşmənin üstünə atılaraq əlbəyaxa döyüşə keçdi. Onlar atəşi özlərinə yönəldən zaman sovet hissələri güc toplayaraq düşmən üzərinə hücuma keçdi. Vaxtilə adsız olan bu yüksəkliyi hazırda Şərqin On Bir Qəhrəmanı Yüksəkliyi kimi tanıyırlar. Hər il onların məzarlarını gül-çiçəyə qərq edirlər".




"Stalinqrad döyüşü" Dövlət Tarix-Memorial Muzey-Qoruğunun ekspozisiya-sərgi şöbəsinin müdiri Svetlana Arzastsevanın sözlərinə görə, heç bir muzey bəşəri yaddaşı əhatə etmək iqtidarında deyil, axı hazırda bütün şəhər bu Qələbənin nəyin bahasına qazanılmasının şahidi olan insan yaddaşının qaynağıdır.

Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev xatırladır ki, nə qədər ki, insanlar əcdadlarının igidliyi barədə xatirəni qayğı ilə hifz edir, ölkənin həqiqi tarixi yaşayacaq, Rusiya və Azərbaycan xalqlarının qardaşlığı yaşayacaq. Bu gün ümumi rəşadət barədə xatirəni hifz etmək və qardaş xalq ilə qarşılıqlı münasibətləri möhkəmləndirmək üçün çox işlər görülür.

"İngiloylar-Erlər İttifaqı" İctimai Xeyriyyə Təşkilatının sədri Rostom Şapiaşvili deyib: "Stalinqrad ətrafında gedən qanlı-qadalı döyüşlərdə xeyli azərbaycanlı iştirak edib, kimsə əbədi olaraq Volqoqrad torpağında qalıb. Biz hər vəchlə çalışırıq ki, böyüməkdə olan nəsil bu rəşadəti, Sovet İttifaqı tərkibində yaşadığımız o şanlı illəri unutmasın. Ölkələrimiz arasındakı əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etməsi üçün üfüqi münasibətlərə böyük diqqət yetirilməlidir. SSRİ-də ənənəvi olaraq respublikaların illəri keçirilirdi. Yaxşı olardı, bu ənənə dirçəldilsin, məsələn, Rusiyada Azərbaycan kinosu dekadası, Azərbaycanda isə Rusiya kinosu günləri keçirilsin.

Ümumrusiya Azərbaycanlılar Konqresinin Volqoqrad regional bölməsinin idarə heyətinin sədri Teymur Həsənovun atası da Stalinqrad ətrafında döyüşüb. Buna görə də azərbaycanlıların rəşadəti haqqında xatirənin qorunub saxlanılması məsələsi onun üçün böyük əhəmiyyət daşıyır. T.Həsənov qeyd edir ki, xalqlar arasında qardaşlıq münasibətlərini qoruyub saxlamaq və möhkəmləndirmək üçün yeni nəslin tərbiyəsinə xüsusi diqqət yetirilməlidir.

**AZƏRTAC**

# Leyla Əliyeva müharibə və əmək əlilləri üçün pansionatın sakinləri ilə görüşüb

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Bilgəh qəsəbəsindəki müharibə və əmək əlilləri üçün pansionatda olub.

Ölkəmizdə yaşlı insanlara, onların problemlərinin həllinə hər zaman qayğı göstərilib. Bu gün də bu gözəl ənənə davam edir.

Leyla Əliyeva pansionatın sakinləri ilə görüşdü, onlarla birlikdə nahar süfrəsi arxasında səmimi söhbət etdi. Pansionatda yaşayanlar Leyla Əliyevanın gəlişini alqışlarla qarşıladılar, burada onlar üçün yaradılan şəraitdən razılıq etdilər, buna görə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər. Leyla Əliyeva pansionat sakinlərinin öz həyatları barədə söhbətlərini heyranlıqla dinlədi, onların qayğıları ilə maraqlandı.

Bilgəh qəsəbəsindəki müharibə və əmək əlilləri üçün pansionat ötən əsrin 60-cı illərindən fəaliyyət göstərir. 1998-ci ildə ulu öndər Heydər Əliyev bu pansionatda olub, veteranlarla görüşüb. 2013-cü ildə pansionata yeni həyat verilib. Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə pansionatın yeni korpusunun açılışı olub. İndi burada 207 nəfər yaşayır. Onların rahatlığı üçün bütün lazımi şərait yaradılıb.

Pansionatın sakinlərinin musiqi alətlərində ifası bu tədbirin ən maraqlı məqamlarından biri kimi yadda qaldı. Azərbaycanda ahıl insanlara dövlət qayğısı ildən-ilə artır, onların problemlərinin həllinə diqqətlə yanaşılır. Ölkəmizdə yaşlı insanların sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin həmişə diqqət mərkəzindədir. “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı”na əsasən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində davamlı islahatlar həyata keçirilir.

Pansionatın sakini Həbib Qəmbərov onlar üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya bütün sakinlər adından minnətdarlığını bildirdi.



Leyla Əliyeva pansionatda yaradılan şəraitlə tanış oldu, otaqları gəzdi. Ölkəmizdə əlil, tənha və ahıllara xidmət göstərən müəssisələrin sakinləri tam dövlət qayğısı ilə əhatə olunublar. Heydər Əliyev Fondu da ahılların ən böyük qayğıkeşidir. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə yaşlı insanlarla, müharibə veteranları ilə görüşlər keçirilir, onların sağlamlığı diqqətdə saxlanılır. Bu kateqoriyadan olan insanlar üçün müxtəlif tədbirlər təşkil olunur - qocalar səhiyyə ocaqlarında müayinə edilir, onlar üçün konsertlər, bayram şənlikləri keçirilir.

Pansionat sakinləri ilə yaddaqalan görüşün daha bir məqamı isə Zəminə Cəbrayılovanın öz yazdığı şeirlərini Leyla Əliyevaya oxuması oldu.

Pansionat sakinləri ilə görüşə yenə də gələcəyini deyən Leyla Əliyeva onlara cansağlığı və uğurlar arzuladı.

**AZƏRTAC**

# Veteranlar həmvətənlərimizi həmrəy olmağa çağırır

***Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Rzayevin sədrliyi və veteranların iştirakı ilə növbəti iclas keçirildi.***

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədri Dadaş Rzayev açdı. Veteranların Respublikamızın həyatındakı rolundan bəhs etdi. Gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi işinin Respublikamızda günbəgün artırmağın vacibliyini vurğuladı. Ölkə həyatının hər bir sahəsində veteranların məsləhət və tövsiyyələrinə hər zaman ehtiyac duyulduğunu bildirdi.

Daha sonra Təşkilatın sədr müavini Cəlil Xəlilov bəyanatın mətni ilə tədbir iştirakçılarını tanış etdi. Tədbir iştirakçıları təşkilatın üzvləri adından bəyanatın mətnini müzakirə ediblər.



Müraciətdə qeyd olunur ki, Azərbaycanın indiki rəhbərliyi ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış “Veteranlar haqqında” Qanunun icrasını uğurla davam etdirir. Böyük Vətən Müharibəsi veteranlarına Prezident təqaüdləri təyin edilməsi, onlara birdəfəlik maddi yardım göstərilməsi, hər il Qələbə Gününün bayram edilməsi, veteranlara pulsuz mənzillər və avtomobillər verilməsi buna əyani sübutdur. Müraciətdə xüsusi vurğulanır ki, ölkəmizdə veteran təşkilatlarının fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onlar üçün binalar və zəruri avadanlıq ayrılıb.

Daha sonra bildirilir ki, bu gün bütün dünyanı bürümüş iqtisadi çətinliklərə və qeyri-sabitliyə baxmayaraq, əsası Ümummilli Lider tərəfindən qoyulmuş siyasi kursun Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilməsi ölkəmizin bu mürəkkəb dövrün sınaqlarından şərəflə çıxmasına imkan verəcək. Qarabağ müharibəsi veteranları və əlilləri, həmçinin məcburi köçkünlər də diqqətdən kənardan qalmır. Hərbi münaqişə nəticəsində zərər çəkmiş şəxslərin hər birinin həyat şəraitinin yaxşılaşdırılması üçün ölkəmizin bütün bölgələrində müxtəlif iqtisadi layihələr həyata keçirilir. Bir sıra ölkələrdən fərqli olaraq Azərbaycanda sosial proqramların icrası ləğv edilməyib.

Müraciətdə deyilir ki, veteranlar həmvətənlərimizi birliyə və səbrli olmağa çağırır, onlar ümdə problemlərin tezliklə həll ediləcəyinə, ilk növbədə ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına inanırlar.

Müraciətin mətni təkminləşdiriləndən sonra Respublika Veteranlar Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidentinə göndərildi.

Daha sonra Təşkilatın qarşısında duran məsələlər müzakirə edildi.

***Azərbaycan Veteranı***



## Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının 21 yanvar 2016-cı ildə keçirilmiş iclasında qəbul edilmiş bəyanat

Ulu öndər Heydər Əliyevin imzaladığı “Veteranlar haqqında” Qanun bu gün Dövlətimiz və hökumətimiz tərəfindən uğurla yerinə yetirilir. Biz bunu Böyük Vətən müharibəsi veteranlarının hamısının Prezident təqaüdü ilə təmin edilməsində, onların və arxa cəbhə veteranlarının hər il 9 May Qələbə günündə başqa MDB ölkələrindən fərqli aldıqları yüksək, birdəfəlik maddi yardımda, onların pensiyalarının ildən-ilə artırılmasında, mənzil və pulsuz avtomaşınlarla təminatında görürük.

Böyük razılıq hissi ilə bildiririk ki, ölkəmizdə veteran təşkilatları üçün də əlverişli şərait yaradılmış, onlar yeni inzibati bina ilə, iş avadanlığı və ləvazimatlarla təmin edilmişdir.

Dünyada baş qaldıran iqtisadi böhran bütün ökələrdə özünü göstərməkdədir. Dünya bazarında neftin qiymətinin kəskin düşməsi dünya iqtisadiyyatın hər bir sahəsinə müəyyən dərəcədə təsir etmişdir. Siyasi porseslər fonunda baş qaldıran bu böhranın təsirindən heç bir dövlət yayına bilməmişdir.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət bu cür sınaqlardan alnı açıq çıxa biləcəkdir. Ölkə başçısı cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan iqtisadi cəhətdən öz sözünü deməyi bacarmışdır. Həyata keçirilən iqtisadi layihələr ökədə qeyri-neft sektorunun payını artırmış, iqtisadiyyatımızın neftdən asılılığını minumuma endirmişdir. Regionların iqtisadi inkişafı üzrə qəbul edilən dövlət proqramı hər bir rayonda əhalinin sosial rifahini yaxşılaşdırmaqla yanaşı iqtisadiyyatımızın daha dayanıqlı olmasına, güclənməsinə, yarana biləcək hər cür çətinlikləri dəf edə bilməsinə şərait yaratmışdır. Aqrar sahədə həyata keçirilən irimiqyaslı layihələr respubikamızın ərzaq təhükəsiziyini tam təmin etməyi bacarmışdır. Əhalinin məişət şəraitinin yaxşılaşdırılması, sosial rifah halının yüksədilməsi, yoxsulluğun və işsiziyin ləğv ediməsi xalqımızı düşünərək atılmış addımlardandır. Bütün bunlar Azərbaycan siyasətinin və iqtisadiyyatının düzgün idarə edilməsindən xəbər verir.

Prezident cənab İlham Əliyev hər bir addımında xalqı düşünür. Bu gün dünyada gedən istər siyasi, istərsə də iqtisadi proseslərin ökəmizə verə biləcək mənfi təsirlərinin qarşısının alınması üçün lazımi addımlar atılır. Respublikamızda əmək pensiyasının artırılması məcburi köçkünlərə, müharibə veteranlarına verilən müavinətlərin, həkim və müəllimlərin, eləcə də digər peşə sahiblərinin əmək haqlarının artırılması bu tədbirlərin müəyyən bir hissəsidir. Qanunsuzluğa yol verənlər qanunla cəzalandırılır, iqtisadiyyatımızın rəqabət və dözümlülüyünün artırılması istiqamətində zəruri addımlar atılır. Bunlar göz önündədir və təksib edilməz və danılmazdır.

Biz veteranlar bəşər tarixinin ən acınacaqlı günlərini yaşamış, əsl çətinliyin, əziyyətin nə demək olduğunu dadmışıq. Həyatın hər cür sınağının öhdəsindən mətanətlə gələ bilmişik. Zəngin həyat təcrübəmiz nəticəsində bu gün dünyada baş verən proseslərin Azərbaycanımıza az təsir edəcəyini əminliklə söyləyə bilərik. Lakin bəzi qüvvələr dünyadakı proseslərdən ölkəmizə qarşı istifadə etməyə çalışırlar. Bu cür hallar yol verilməzdir və bu hal biz veteranlar, eləcə də hər bir azərbaycanlı tərəfindən qətiyyətlə pislənir.

Dünyada baş verən hadisələrin qarşısının alınması, iqtisadi böhranın qabaqlanması yönündə bütün dövlətlər dəyərini birləşdirməli, birgə addımlar atmalıdır. Eləcə də ökəmizdə hər bir vətəndaş hakimiyyət ətrafında sıx birləşməli, əsl iradə, mərdlik və dözüm nümayiş etdirməlidir. Biz ümummilli lider Heydər Əlyevin “Azərbaycan xalqı dözümlü xalqdır” deyimini bir daha sübüt etməliyik. Hansı ki, biz bunu güclü və dinamik inkişaf edən iqtisadiyyatımıza, ev sahibliyi etdiyimiz beynəxalq tədbirlərlə göstərməyi bacarırıq.

Bir daha biz veteranlar xalqımızı dözümü olmağa səsləyir, bütün probemlərin öhdəsindən mətinliklə gələ biləciyimizə, teziklikə Qarabağımıza dönəcəyimizə inanırıq. Bunun üçün daim xalqımızı, başda ölkə başçısı cənab İlham Əliyev olmaqla hakimiyyət ətrafında sıx birəşməyə çağırırıq. Tezliklə bütün probemlərin geridə qalacağına əminik. Çünki biz azərbaycanlıyıq, dözümlü və mətin xalqıq.

# Şərəfli döyüş yolu keçmiş Həzi Aslanovun tarixi şücaətləri heç vaxt yaddaşlardan silinməyəcək

***İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun xatirəsinin anma mərasimi keçirilib.***

Şəhidlər xiyabanında cəsur sərkərdə Həzi Aslanovun abidə-kompleksi önündə keçirilən tədbirdə Müdafiə Nazirliyinin rəhbər şəxsləri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin şəxsi heyəti, müharibə veteranları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Həzi Aslanovun abidə-kompleksi önünə əklil və gül dəstələri qoyulub, generalın xatirəsi hörmət və ehtiramla yad edilib.

Anma mərasimində qəhrəman haqqında kitabların müəllifi, Əməkdar İncəsənət Xadimi, polkovnik Abdulla Qurbani onun mənalı həyat və şərəfli döyüş yolundan danışaraq qeyd edib ki, Həzi Aslanov Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdəndir. Həzi Aslanov 34 yaşında Sovet İttifaqı Qəhrəmanı adına və general rütbəsinə layiq görülüb. Onun adı qəhrəmanlıq simvoluna çevrilib. Xalqımızın ümummilli lideri Heydər Əliyev Həzi Aslanovun hərb tariximizdə müstəsna rol oynadığını dəfələrlə qeyd edib və qəhrəmanın adının əbədiləşdirilməsi üçün bir çox sərəncamlar verib. Bu diqqət Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən davam etdirilir.



Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev çıxış edərək vurğulayıb ki, Azərbaycan xalqının qəhrəman övladı, Böyük Vətən müharibəsinin iştirakçılarından olan Həzi Aslanovun qəhrəmanlıqla dolu həyat yolu hər bir vətəndaş üçün nümunədir. O, müdafiə naziri, general-polkovnik Zakir Həsənovun salamlarını Həzi Aslanovun ailə üzvlərinə çatdıraraq Azərbaycan xalqının qəhrəmanlıq ənənələrinin təbliğ olunması məqsədilə keçirilən tədbirlərin Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş və vətənpərvərlik ruhunun yüksəldilməsində böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Respublika Veteranlar Şurasının sədri, istefada olan general-mayor Dadaş Rzayev, tədqiqatçı-jurnalist, professor Musa Bağırov və digər çıxış edənlər də qəhrəmanın həyat və döyüş yolundan söhbət açıblar.

Bildirilib ki, 1941-ci ilin iyununda müharibənin odalovları içərisinə atılan qəhrəman həmyerlimiz komandanlıq etdiyi tank briqadası ilə birlikdə Donbas, Moskva, Xarkov, Stalinqrad, Taqanrok, Kursk və daha neçə-neçə şəhərin faşizmdən azad olunmasında fəal iştirak edib. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Həzi Aslanovun, eləcə də Azərbaycan övladlarının tarixi şücaətləri heç vaxt yaddaşlardan silinməyəcək, gənc nəsil üçün vətənpərvərlik nümunəsi olacaq. Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdən biri olan Həzi Aslanovun adı həmişə qədirbilən xalqımız və dövlətimiz tərəfindən əziz tutulub.

Sonra generalın nəvəsi, polis general-mayoru Həzi Aslanov ailə üzvləri adından göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

# Lənkəranda general-mayor Həzi Aslanovun xatirəsi ehtiramla yad edilib

İkinci Dünya müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun yanvarın 22-i doğum günü idi.

Bu münasibətlə qəhrəmanın adını daşıyan Xatirə Parkında anım mərasimi keçirilib.

Lənkəran Şəhər İcra Hakimiyyətinin məsul işçilərinin, Böyük Vətən müharibəsi veteranlarının, ümumtəhsil məktəblərinin müəllim və şagird kollektivlərinin, ziyalıların, ictimaiyyətin, KİV nümayəndələrinin qatıldığı tədbirdə qəhrəmanın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının aktyoru, Xalq Artisti Qabil Quliyev görkəmli sərkərdənin İkinci Dünya Müharibəsində göstərdiyi misilsiz şücaəti barədə məlumat verib.

Qeyd olunub ki, 34 yaşında iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına və general rütbəsinə layiq görülən həmyerlimizin adı qəhrəmanlıq simvoluna çevrilib. Mərasimdə "Gənc Aslanovçular Klubu" üzvlərinin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunub.

Sonra mərasim general-mayor Həzi Aslanovun ev-muzeyində davam etdirilib.



# Qəhrəman azərbaycanlıların xatirəsi yaddaşlarda daim yaşayacaq

Stalinqrad ətrafında döyüşlərdə sovet xalqının ümumi rəşadəti Rusiya-Azərbaycan qardaşlığının rəhnidir. Döyüşün başa çatmasının 73-cü ildönümündə Volqoqradda təntənəli mitinqlər və veteranlarla görüşlər keçirilib, Mamay Kurqanda əklillər qoyulub. Məşhur muzey-panoramın yanında möhtəşəm videoinstalyasiya nümayiş etdirilib: Herhard dəyirmanının divarında küçə döyüşlərinin epizodları canlandırılıb, müxtəlif millətlərin nümayəndələri olan gənclər babalarının hər bir küçəni, hər bir evi düşməndən necə qoruduqlarına tamaşa ediblər.

Rusiya-Azərbaycan Dostluq Mərkəzi direktorunun müavini Denis Yakimenko bildirib ki, şəhərin müdafiəçilərinin qəhrəmanlığı Hitlerin Sovet İttifaqını cənginə almağı nəzərdə tutan Qafqazın işğalı – "Neft məngənəsi" planını puç etdi. Ekspert deyib: "Hər şey düşmənin düşündüyü kimi getsəydi, ölkənin az qala bütün neft hasilatının və yanacaq sənayesinin cəmləşdiyi Azərbaycan almanların əlinə keçəcəkdi. Bu, baş tutsaydı, müharibənin sonrakı gedişatının necə olacağını demək çox çətindir".

Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev isə xatırladır: "O dövrdə Bakıdakı hər bir neft zavodunda şüar asılmışdı: "Bizim üçün hər bir quyu Stalinqraddır!" Azərbaycan sakinləri 17 milyon manatlıq şəxsi əmanətlərini müdafiə fonduna keçirmişdilər. Həmin pullara tank dəstəsi və təyyarə eskadrilyası inşa edilmişdi".

Volqoqrad Dövlət Təhsil İşçilərinin İxtisasının Artırılması və Yenidən Hazırlanması Akademiyasının ictimai elmlər kafedrasının baş müəllimi Rəna Qasımovanın sözlərinə görə, Stalinqradın müdafiəsinə görə mükafatlandırılanlar arasında 1500-ədək azərbaycanlı olub. Səsindəki qəhəri boğa bilməyən Rəna Qasımova Volqa torpağında canından keçən qəhrəmanlardan hər bir azərbaycanlı barədə qısaca da olsa məlumat verməyə çalışır: "Burada əfsanəvi snayper Baloğlan Abbasov döyüşüb. O, snayper sənətini yoldaşlarına da öyrədirdi. Tibb xidməti leytenantı Zərifə Camalbəyova misilsiz qəhrəmanlıq və igidlik nümayiş etdirib. Aldığı yaralara görə, 1943-cü ildə Stalinqrad ətrafında döyüşlərdən sonra ordudan tərxis edilib. Daha bir tibb bacısı Həlimə Rzayeva bu yerlərə 1942-ci ildə gəlib və üç ay ərzində döyüş meydanından 300-dən çox əsgər və zabit çıxarıb. Azərbaycanın ilk qadın təyyarəçisi Züleyxa Seyidməmmədova da burada döyüşüb. O, qadınlardan ibarət aviasiya alaylarının təşkilində iştirak edib. 1942-ci ilin payızında Stalinqrad ətrafına gəlib, 500-dən çox uçuşu olub, 42 hava döyüşündə iştirak edib. Həzi Aslanovu bütün Rusiya tanıyır. Onun komandanlıq etdiyi 55-ci əlahiddə tank alayı 1942-ci ilin qızmar iyul günlərində general Manşteynin birləşmələri ilə qarşılaşıb və cinahlardan vurduğu sərrast və qətiyyətli zərbələrlə düşmənin üstün qüvvələrinin həmlələrini dəf edib. Dekabr ayında Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verilib. Onun və tankçılarının qəhrəmanlığı barədə bütün qəzetlər yazırdı".



RF Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Xidməti Akademiyasının Volqoqrad filialının fəlsəfə və sosiologiya kafedrasının professoru Riçard Arami Danakari deyib: "Bu, bizim tariximiz və şöhrətimizdir. Mən də bir müəllim kimi hazırda müxtəlif ölkələr olan, amma vaxtilə bir yerdə misli görünməmiş qəhrəmanlıq nümayiş etdirən Rusiya və Azərbaycan arasında dostluq və qardaşlıq ənənələrini gənc nəslə ötürmək üçün əlimdən gələni etməyə çalışıram. Yalnız gənclərimiz hamımız üçün müqəddəs olan bu torpaqda minlərlə azərbaycanlı kişi və qadının rəşadətini unutmayacağı təqdirdə, ölkələrimiz arasındakı münasibətlər eynən indiki kimi qardaşlıq münasibətləri olaraq qalacaq".

Volqoqraddakı Dostluq parkı bu qardaşlığın rəmzlərindən biridir. Bu park 2013-cü ildə Heydər Əliyev Fondunun vəsaiti hesabına yaradılıb. "Ümumrusiya Azərbaycanlılar Konqresi" Ümumrusiya İctimai Təşkilatının Volqoqrad regional bölməsi sədrinin müavini Rizvan Seyfullayevin sözlərinə görə, vaxtilə bu ərazi Nobel qardaşlarına məxsus olub. Onlar burada Bakı nefti üçün anbarlar saxlayırmışlar. Bu gün isə bura şəhər sakinlərinin sevimli istirahət yerlərindən biridir. R.Seyfullayev deyib: "Biz içərisində gələcək nəsillərə müraciət olan kapsulu bünövrəyə qoyanda dövlətlərimizin inkişafına və uzunömürlü dostluğuna ümumi ümidimizi ifadə etmişdik. Müqəddəs Volqoqrad torpağında yaşayan azərbaycanlıların indiki nəsilləri xalqlarımızın çoxəsrlik ənənələrini davam etdirirlər".

# Əfsanəvi qəhrəman Həzi Aslanovun xatirəsi anılıb

Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 106-cı il dönümü münasibətilə Lənkəran qarnizonu zabitlər evi və Həzi Aslanovun ev-muzeyinin birgə təşəbbüsü ilə tədbir keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, tədbirdə hərbi hissələrin əsgərləri, məktəblilər və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əsgərlərə H.Aslanovun uşaqlıq, gənclik illəri və keçdiyi döyüş yolu, göstərdiyi qəhrəmanlıqlar haqqında geniş məlumat verilib. Məktəblilərin iştirakı ilə hazırlanmış kompozisiyada qəhrəmana həsr edilmiş şeirlər səsləndirilib, xatirələr söylənilib.



Muzeyin direktoru Tamara Fətullayeva və muzeyin əməkdaşları qəhrəmanın general S.Mehmandarovla görüşü haqqında əsgərlərə məlumat verib, onları maraqlandıran sualları cavablandırıb.

Sonda əsgərlər Həzi Aslanovun uşaqlıq illərinin yadigarı olan "İnnab" ağacının qarşısında xatirə şəkilləri çəkdiriblər.

# Xocalı Soyqırımı

**"Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdi ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. Ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır - vəhşiliyin görünməmiş bir təzahürüdür."**

**Heydər Əliyev**



1988-ci ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən müdhiş hadisələrdən biri Xocalıda baş vermiş soyqırım oldu. Bu hadisə XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilə bilər. Xocalı faciəsi tarixdə bizə məlum olan Babiyar, Xatın, Liditse, Sonqimı faciələri ilə eyni səviyyədə durur.

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-milətçiləri, faşistləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin davamı və ən qanlı səhifəsidir. Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu az olan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları uzağagedən məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmənlər öz niyyətinə çata bilmədi. Doğrudur, faciə bütün Azərbaycan xalqını sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, Azərbaycan xalqına mənəvi zərbələr vurmuşdur. Lakin xocalılar hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi (366-cı alay) faşist birləşmələrinə qarşı qeyri-bərabər



döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Cinayətkar erməni faşist hərbi birləşmələrinin və 366-cı alayın vəhşiliyi nəticəsində 613 nəfər şəhid, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar olmuşlar, şikəstlərin 76 nəfəri yetkinlik dövrünə çatmamış oğlan və qızlardır. 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 azyaşlı uşaq isə valideynlərindən birini itirmişdi. Şəhid olanların yalnız 335 nəfəri dəfn olunmuş, 1000 nəfərdən artıq şəhər sakini müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdı. Meyitlər üzərində dilə gətirilməsi mümkün olmayan, təhqiramiz, vəhşiliklər edilmişdir.

Xocalı faciəsinin acı nəticələrini hamı bilməli ,daim yadda saxlamalı və bütün dünya bəşəriyyətinə bir daha çatdırılmalıdır.

Azərbaycan Respublikasının əsas ərazisi ilə əlaqəsi kəsilmiş, 50-60 ədəd avtomat silah və ov tüfəngi ilə silahlanmış özünümüdafiə dəstəsi olan Xocalı şəhəri ətrafında ən müasir texnika ilə təpədən dırnağa qədər silahlanmış ermənilər və ruslar, 366-cı alayın şəxsi heyəti şəhərin mühasirə halqasını günü gündən daha da sıxmış və 1992-ci il fevralın 25-də gecə saat 22 radələrində Xocalı şəhərinə 366-cı motoatıcı alayının bütün şəxsi heyəti silah və hərbi texnikası ilə birgə hücuma keçmişdir. Hücumda ermənilər tərəfindən 366-cı alayın 1-ci taborunun qərargah rəisi Çitçyan Valeriy İsayeviçin komandası altında, mayor Ohanyan Seyran Muşeqoviçin komandası altında 2-ci taboru, Yevgeni Nabokixin komandası altında 3-cü taboru və alayda xidmət edən 50-dən artıq erməni millətindən olan zabit, gizirlər, çavuşlar texnika və silahdan istifadə edərək ( tanklar, BTR, BDM-lər, toplar ) D-30 qaubitsası və digər müasir hərbi texnika iştirak etmişdir. Azərbaycan vətəndaşları, gənclərimiz şəhidlərimizin qisasını almaq üçün bunu yaddan çıxarmamalı, bütün dünya bəşəriyyətinə Xocalı soyqırımının erməni faşistləri tərəfindən törədildiyini çatdırmalıdırlar.

Ona görə də Azərbaycan gənclərinin hər bir nailiyyəti, hər bir uğuru bizi vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda müqəddəs mübarizəyə- Qələbəyə daha da yaxınlaşdırır. Xocalıda şəhid olanların ruhunu yad edir və onların qisasını alırlar. Bizim gənclərimiz Azərbaycan Respublikasının Milli Qəhrəmanı rəhmətlik Mübariz İbrahimov kimi hər şeyi dərk etməlidir, vətəni, dövləti sevməlidir ki, şəhidlərimizin qanı bahasına müstəqil olmuş Azərbaycanın ərazi bütövlüyünü bərpa edək və Xocalı soyqırımının qisasını alaq. Bütün dünya xalqına göstərməliyik ki, biz öz vətənimizi, torpağımızı, xalqımızı qorumağa qadirik. Bizim gənclərimiz anlamalıdır ki, bizi özümüzdən başqa heç kim müdafiə etməyəcək.

Bu kədərli 24-cü ildönüm günündə Xocalı şəhidlərinin əziz xatirəsini bir daha yad edir, onlara Allahdan rəhmət diləyir, həlak olanların yaxınlarına, doğmalarına, bütün Azərbaycan xalqına bir daha dərin hüzünlə baş sağlığı veririk.

**Adil Haqverdiyev**
**Azərbaycan Respublikası Veteranlar Təşkilatının şöbə müdiri**

# GÖZƏLLƏRİN GÖZƏLİ ŞƏKİ

**28 yanvar 2014-cü il tarixli Plenumda hörmətli general Dadaş Rzayev Respublika Veteranlar Təşkilatına sədr seçildikdən sonra bu təşkilat və onun Rəyasət Heyəti həqiqətən diqqətəlayiq, mənalı, səmərəli iş fəaliyyətinə başlamışdır.**

Hörmətli sədrin təşkilatçılıq bacarığı sayəsində Respublika Veteranlar Təşkilatının nüfuzu artmışdır. Təşkilatın həyatında yeni canlanma və fəallaşma prosesi açıq-aşkar göz qarşısındadır.

Digər tərəfdən sevindirici hal budur ki, möhtərəm Prezidentimiz İlham Əliyevin Veteranlar haqqında uğurlu siyasəti və eyni zamanda onun cənab general Dadaş Rzayevə qarşı isti münasibətləri nəzərə alınaraq bütün şəhər və rayon rəhbərləri veteranlarla iş münasibətlərini müsbətə doğru dəyişmiş, veteranlara qarşı qayğıları və diqqətlərini daha da artırmışlar.

Odur ki, Respublika Veteranlar Təşkilatı geniş inkişaf yoluna çıxmış, idarənin maddi-texniki bazası möhkəmlənmiş, Respublika miqyasında veteranlara qayğı və diqqət yüksək səviyyəyə qalxmışdır.

Ulu öndərimiz Heydər Əliyev Veteranlarımızı "Qızıl fond" adlandırmışdır. Cənab Prezidentimiz İlham Əliyev veteranlar haqqında dövlət siyasətini daha da genişləndirmişdir. Onun Respublika Veteranlar Təşkilatına təmirdən çıxmış yeni inzibati binanı verməsi, həmçinin veteranlara ev, əlillərə avtomobil və pul mükafatları verməsi kimi hallar kövrək qəlbli veteranlar ordusunu xüsusilə sevindirmişdir.

Məhz ölkəmizdə veteranlarla bağlı yaranmış abuhava, mühit və şəraitdə Şəki rayon İcra Hakimiyyətinin başçısı hörmətli Elxan Usubovun veteranlara ayırdığı diqqət və qayğı üstünlük təşkil edir.

Şəki rayon Veteranlar Təşkilatının yerləşdiyi bina şəhərin mərkəzindədir. Buraya gələrək şəraitə diqqət yetirdikdə görürük ki, çöl tərəfdə bu qurumun tam adı lövhədə öz əksini tapmışdır.

Otağa daxil olanda divarlarında iri çərçivələrə salınan şəkil lövhələri nəzər diqqəti cəlb edir. Bu lövhələr arasında İkinci dünya müharibəsinin iştirakçılarına aid olan "kimlər-gəldi, kimlər getdi bu dünyadan" adlı, "Şəkililər 1941-1945-ci il Böyük Vətən Müharibəsi İllərində", "Qəhrəmanlar Unudulmur", "Qarabağ faciəsi", "Əfqanıstan veteranları", "Azərbaycan Respublikasının Milli Qəhrəmanları" adlı lövhələr xüsusilə fərqlənir.

Burada ictimai və dövlət xadimi Soltan Əzizovun 95 illiyi və Fransa Partizan hərəkatının fəal üzvü Əhmədiyyə Cəbrayılovun da 95 illiyinə həsr olunan sərgi vardır.

Otaqda qələbənin 70 illiyi ilə əlaqədar çoxlu kitablar, qəzetlər və jurnallar sərgisi də təşkil olunmuşdur.

Veteranlar Təşkilatında olan sənədlərlə tanış olduqda məlum oldu ki, Şəki rayonunda Veteranlar Təşkilatı 1978-ci ildə yaradılmışdır. 2010-cu ildən bu təşkilatın sədri kifayət qədər iş təcrübəsi olan əmək veteranı Əhmədov Mustafa Yusif oğludur.

1941-1945-ci illərdəki Böyük Vətən Müharibəsi zamanı 14598 nəfər şəkili ümumi vətənimiz SSRİ-nin müdafiəsinə səfərbər edilmişdir.

Müharibədə 7695 nəfər həlak olmuş, 6903 nəfər isə salamat qayıtmışdır. Bunlardan hazırda 24 nəfər yaşayır.

Böyük Vətən Müharibəsində həlak olanların xatirəsini əbədiləşdirmək üçün hələ 1971-ci ildə Şəki şəhərində möhtəşəm abidə ucaldılmışdır.

Komissiyaların tərkibi nəzərdən keçirildikdə məlum olmuşdur ki, həmin komissiyalara rəhbərlik edənlər ictimaiyyətdə nüfuzu olan sağlam düşüncəli insanlardır.

Ümumiyyətlə burada gənclərin vətənpərvərlik ruhunda tərbiyələndirilməsində görülən işlər diqqət cəlb etmişdir.

Qələbənin 70 illiyi münasibəti ilə Şəki rayon İcra Hakimiyyətinin başçısı cənab Elxan Usubov veteranlarla süfrə arxasında görüşəndə 25 nəfər veteranın hər birisinə 100 manat pul mükafatı vermişdir.

Maraqlı cəhət budur ki, Qələbənin 70 illiyinin Şəki rayonunda qeyd olunmasının yekun iclası keçirilərək fotoşəkillər çəkilmişdir.

Şəki rayon Veteranlar Təşkilatına rəhbərlik edən şəxslərin əmək haqları və məvacib alıb-almamaları ilə maraqlandıqda aşkar edilmişdir ki, bu şəxslərə məvacib verilməsi smetada nəzərdə tutulmamışdır.

Şəki rayon Veteranlar Təşkilatının sədri Əhmədov Mustafa Yusif oğlu uzun illərdir ki, həmin vəzifənin öhdəsindən layiqincə gəlir və rayonda böyük nüfuza malikdir. Eyni zamanda o, rayon rəhbərliyi, idarə və müəssisələr ilə işgüzar münasibətlərinin qurulmasında da böyük təcrübə toplamışdır. Onun iş təcrübəsinin respublika miqyasında başqa Veteranlar Təşkilatları üçün də nümunə ola biləcəyi nəzərə alınaraq Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətində müzakirə edilmişdir.

Rəyasət heyətinin 26 noyabr 2015-ci il tarixli qərarı ilə Şəki rayon Veteranlar Təşkilatının müsbət iş təcrübəsi icmal məktubla veteranlar təşkilatları arasında yayılmışdır.

***Cahangir Nəsirov,***
***Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının NəzarətTəftiş komissiyasının sədri***

# GƏNCLƏRİN HƏRBİ-VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏSİ YENİ NƏSLİN TƏRBİYƏSİNDƏ MÜHÜM AMİLLƏRDƏN BİRİDİR

"Hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır". Ulu Öndər Heydər Əliyevin bu nəsihəti gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması işinin mərkəzi xəttini təşkil edir.

Ölkəmizdə gənclər siyasətinin əsasını ümummilli lider Heydər Əliyev qoyub. Ulu öndər gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verirdi, bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirirdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk ümumrespublika forumunun keçirilməsi, 2 fevralın Azərbaycan gəncləri günü elan edilməsi, 5 dövlət proqramının qəbulu, "Dövlət gənclər siyasəti haqqında" fərman və geniş fəaliyyət proqramının təsdiq edilməsi Heydər Əliyevin gənclərə böyük qayğısı idi. Bu, gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaradır, habelə dövlət orqanlarının diqqətini gəncliyin problemlərinin həllinə yönəldirdi.

Gənc nəslin tərbiyəsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin daimi diqqəti mərkəzində olmuşdur. Bu istiqamətdə işin vacib tərkib hissəsi olan gəncliyin inkişafı məqsədilə 1996-cı ildə "Dövlət gənclər siyasəti haqqında" Qanun qəbul edildi. Bildiyimiz kimi, Azərbaycan gənclərinə göstərilən diqqət və qayğı dünyanın heç bir ölkəsində mövcud deyil. Ümummilli liderimiz gəncləri həyatda fəal mövqe tutmağa, vətəndaş mövqeyi nümayiş etdirməyə çağırırdı. Ulu öndər deyirdi: "Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun".

Ulu öndər gənclərdə yüksək mənəvi keyfiyyətlər tərbiyə etməyi tövsiyə edirdi: "Gəncləri paklıq, saflıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik" deyən Heydər Əliyev Vətəni ata ocağı adlandırır, insanın doğma yurda, torpağa bağlılığını vacib şərt hesab edirdi. Ümummilli lider vətənpərvərlik hisslərindən danışarkən göstərirdi: "Hara getsək də, bizim fikirlərimiz, xəyallarımız daim bu torpaqdadır. Dünyada nə qədər ideyalar, məramlar varsa, hamısının kökü insanın torpağa bağlılığından inkişaf edir, insanları yüksək amallara səsləyir; insanlar birgə yaşayırsa, humanizmə, mədəniyyətə ilk əvvəl Vətən torpağında yiyələnirlər. Buna görə də xalqın yüksək mədəniyyəti, mənəviyyatı, istedadı onun Vətəni ilə bağlıdır. Vətənin tarixi, mədəniyyəti dünya sivilizasiyasında tutduğu yerlə ölçülür". Vətənpərvərliyin əsas şərtlərindən biri kimi o, insanın öz ana dilini mükəmməl bilməsinə böyük önəm verir və deyirdi: "Hər bir Azərbaycan gənci birinci növbədə, gərək öz dilini, ana dilini bilsin. Çünki bu, anasının dilidir. Bu, ölkənin dövlət dilidir və gənc bu dildə təhsil alsın, bu dildə yazsın, bu dildə oxusun. Məhz bu dildə Azərbaycan xalqının zəngin tarixini, zəngin mədəniyyətini, əsrlər boyu yaranmış böyük irsini öyrənə bilsin. Dil hər bir millətin milliliyinin əsasıdır... Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin". Ümummilli lider tariximizi dərindən bilməyin vacibliyini vurğulayarkən diqqəti aşağıdakı məsələlərə yönəldirdi: "Əgər bunu bilmirsə, o, həqiqi vətənpərvər ola bilməz. Əgər bunu bilməsə, o, millətini qiymətləndirə bilməz. Əgər onu bilməsə, o, millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz". Ulu Öndərin xalqını sevməyi öyrədən,onunla qürur duymağı təbliğ edən tarixi kəlamı var : " Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm- Mən azərbaycanlıyam".

Ümummilli liderimiz Heydər Əliyev öz fəaliyyəti dövründə daima gənclərə qayğı göstərmiş, onların bir fərd kimi yetişməsinə xüsusi önəm vermişdir. Ulu öndər respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görmüşdür. 1970-1987-ci illərdə Azərbaycandan kənarda ali təhsil almış mütəxəssislərin ümumrespublika toplantısında (sentyabr, 1998) Ulu Öndər Heydər Əliyev demişdir : "Mən istəyirdim ki, hər bir azərbaycanlı gənc atasının, anasının kimliyindən, ailəsinin maddi vəziyyətindən asılı olmayaraq, əgər istedadı varsa və ali təhsil almaq istəyirsə, buna nail ola bilsin." Hakimiyyətə ikinci dəfə ( 1993) gəldiyi ilk günlərdən başlayaraq gənclər siyasəti ilə bağlı bir çox fərman və sərəncamlar imzalayan Ulu Öndər gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə həmişə önəm vermişdir. Heydər Əliyev nitqlərinin birində bu barədə demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məvhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları gözəl bilən Ümummilli lider Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyinin yaradılması barədə sərəncam imzaladı. Gənclər və İdman Nazirliyi yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirilməyə başladı, nazirliyin yerli strukturları formalaşdı, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görüldü, bir sıra dövlət proqramlarının hazırlanması üçün hüquqi baza yarandı.

Bu siyasətin davamı olaraq 1996-cı il yanvarın 26-da Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanan sərəncama əsasən, 2 fevral 1996-cı il tarixdə Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata kecirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərə çarpacaq dərəcədə canlanmasına səbəb oldu.

O dövrdən başlayaraq Azərbaycan Respublikası gənclərinin forumu mütəmadi olaraq kecirilməyə başladı. Gənclərin II forumu 1999-cu ildə keçirildi. Gənclərə xüsusi diqqət ayıran ölkə rəhbəri Heydər Əliyev bu forumda çıxış edərək gənclərə müraciət etdi: "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq". Bu sözlərlə gəncliyə olan etimadının, diqqətinin sonsuz olduğunu göstərən Ulu Öndər Azərbaycan gəncliyinin üzərinə böyük vəzifələr qoydu.

1997-ci il fevralın 1-də gənclərin I forumunun ildönümü münasibəti ilə gəncləri qəbul edən Heydər Əliyev 2 fevralın Azərbaycanda gənclər günü elan edilməsi barədə sərəncam imzaladı. Həmin vaxtdan etibarən artıq 17 ildir qeyd etdiyimiz bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlandı.

1998-ci ildə İlham Əliyevin Milli Olimpiya Komitəsinin sədri təyin olunması ilə Azərbaycanda idmanın bütün sahələrində canlanma başladı. Bu diqqətin nəticəsi olaraq gənclər arasında idmana maraq daha da artdı, ölkəmizdə Olimpiya hərəkatı geniş vüsət aldı. Azərbaycan gəncliyinin kompleks inkişafını təmin etmək məqsədilə 2002-ci ilin aprel ayının 9-da "Dövlət gənclər siyasəti haqqında" Qanun imzalandı. Bu Qanunun 5.1. maddəsində göstərilir : "Müvafiq icra hakimiyyəti orqanları gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi məqsədi ilə hərbi-tətbiqi idman növlərinin və hərbi-idman oyunlarının keçirilməsi, gənclərin mədəni-kütləvi tədbirlərə, o cümlədən teatr tamaşalarına cəlb edilməsi sahəsində tədbirlər həyata keçirirlər". Beləliklə də gənclərin vətənpərvərlik və hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin işinin hüquqi əsası yaradıldı.

Görülən işlərin davamı olaraq 2003-cü il oktyabrın 13-də keçirilmiş Azərbaycan gənclərinin üçüncü forumu əvvəlki forumlardan ötən dövr ərzində görülmüş işlərin layiqincə qiymətləndirilməsi və gənclərə azərbaycançılıq məfkurəsinin aşılanması yollarını müəyyənləşdirərək, qərarların yerinə yetirilməsi üçün ölkənin bütün qüvvələrini səfərbər etməsi ilə yadda qaldı.

2001-ci ildən başlayaraq mütəmadi şəkildə Gənclər və idman Nazirliyinin dəstəyi ilə Xaricdə təhsil alan və məzun olmuş azərbaycanlı gənclərin Beynəlxalq Forumu keçirilməyə başladı. 2010-cu ilədək 8 dəfə keçirilmiş bu Forum azərbaycanlı gənclərin xarici ölkələrdə əldə etdikləri təcrübələri bölüşmək, ölkəmizin inkişafı üçün birlikdə çalışma əzmlərini inkişaf etdirmək, gənclər arasında canlı ünsiyyəti və informasiya mübadiləsini təşkil etmək baxımından mühüm işlər gördü.

Ulu Öndər Heydər Əliyevin gənclər siyasətini uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin 2006-cı ildə imzaladığı Gənclər və İdman Nazirliyinin yenidən təşkil edilməsi haqqında fərmanı da mühüm hadisə oldu. Dövlətin gənclərlə bağlı siyasətinin uğurla həyata keçirilməsində bu mühüm addımın çox böyük rolu var. Gənclərin sağlam böyüməsi yolunda atılan bu addımla bütün sahələrdə olduğu kimi idman sahəsində də böyük irəliləyişlər əldə olundu.

Ölkəmizdə məqsədyönlü şəkildə həyata keçirilən işlərin nəticəsi olaraq bu gün müasir Azərbaycan gəncliyi yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkə rəhbəri tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin düzgünlüyünü bu sahədə qazanılmış uğurlu nəticələr də təsdiqləyir. Prezident İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncamı da gənclərə dövlət qayğısının davamı idi.

Bütün bunlar deməyə əsas verir ki, ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasəti gələcək nəslin intellektual səviyyəsinin artmasına da olduqca müsbət təsir göstərir. Təhsil sahəsində aparılan islahatlar da gənclər siyasətinin ən vacib istiqamətlərindən biridir. Gənclərin maariflənməsinə, savadlanmasına, elmi inkişafına göstərilən xüsusi diqqət və qayğının davamı olaraq, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində tələbələrin dünyanın məşhur universitetlərində təhsil almaq üçün göndərilməsi xüsusi diqqətə layiqdir. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" Prezident fərmanları bu istiqamətdə görülən mühüm tədbirlərdəndir.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. "Bədən tərbiyəsi və idman haqqında", "Gənclər siyasəti haqqında" qanunlar, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" Dövlət Proqramı da bu qəbildəndir.

Prezident İlham Əliyev tərəfindən 2007-ci ilin "Gənclər ili" elan edilməsi gənclərə ölkə Prezidenti tərəfindən böyük önəm verilməsinin növbəti sübutudur.

Hazırda ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir. Azərbaycan əhalisinin 2,8 milyonu və ya 31%-i gənclərdir. Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir. Təbii ki, bu, cənab Prezidentin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir.

Gənclər də dövlət qayğısını daim öz üzərlərində hiss edərək, nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Bu məsələnin nə qədər aktual olduğunu bir daha göstərmək məqsədilə məqaləmi ölkə Başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cənablarının gənclərə xitabı ilə yekunlaşdırıram: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

***Məmmədağa Şiriyev,***
***Masallı Rayon Veteranlar Təşkilatının sədri***

*Rzayev Nəsir 1936-cı ildə Lerik rayonun Çayrud kəndində anadan olmuşdur. O, uşaqlıqdan fiziki əməklə məşğul olmuşdur. Doğulduğu kəndin sərt qayaları, insan ayağı dəyməyən meşələri, gecələr ona lay-lay deyən kənd çayı onda ədəbiyyata, şeirə həvəs və inam yaratmış, gənc yaşlarından şeirlər və bayatılar yazmışdır.*

Ədəbiyyata olan böyük marağına baxmayaraq tale onu Bakıya-Pedaqoji İnstitutun Riyaziyyat fakültəsinə gətirib çıxarır.1965-ci ildə institutu bitirən Nəsir Rzayev rayonda müəllim, dərs hissə müdiri işləmişdir. Səmərəli fəaliyyətinə görə bir çox mükafatlara, o cümlədən SSRİ Maarif Nazirliyinin fəxri fərmanına layiq görülmüşdür. Əmək veteranı təqaüdə çıxdıqdan sonra yaradıcılıqla məşğul olur, dövrü mətbuatda vaxtaşırı çıxış edir. "Həya pərdəsini götürmə üzdən" şeirlər kitabının müəllifidir.

Nəsir müəllim təqaüdə çıxdıqdan sonrada məktəblilərlə tez-tez görüşür, onlarla hərbi-vətənpərvərlik mövzusunda maraqlı söhbətlər aparır.

Hörmətli oxucular, sizə Nəsir müəllimin aşağıdakı şeirini təqdim edirik.

## Çiçəklən, can Azərbaycan

Tarixini varaqladım,
Dözümünə heyran qaldım.
Nəhayət şad xəbər aldım,
Çiçəklənən, can Azərbaycan.

Ulu Heydər dövlət qurdu,
O, yaratdı Milli Ordu.
Arzularım tam çin oldu,
Çiçəklən, can Azərbaycan.

İgidlər vətənsiz qalmaz,
İgidlərsiz vətən olmaz.
Əkdikləri heç vaxt solmaz,
Çiçəklən, can Azərbaycan.

Təkində var neftin, qazın,
Dənizdə çalınır sazın,
İndi vardır öz avazın,
Çiçəklən, can Azərbaycan.

Hər bir fəslin güllü bahar,
Ətir saçan güllərin var,
Çox əzizsən, doğma diyar,
Çiçəklən, can Azərbaycan.

Yeni məscidlər tikilir,
Azanın səsi yüksəlir.
Xaricilər dinə gəlir,
Çiçəklən, can Azərbaycan.

Var aranın, vardır dağın,
Sənin vardır hər cür bağın.
Azad olar "Qarabağın",
Çiçəklən, can Azərbaycan.

İxtiyarın mərd əllərdə,
İnkişaf var kənd, şəhərdə,
Yayımlanır xəbərlərdə,
Çiçəklən, can Azərbaycan.

Gündə fantan verir quyu,
Hər məkanda bulaq suyu,
Seçilməkçün ömür boyu,
Çiçəklən, can Azərbaycan.

Keçmişini yada gətir,
İndi səni "var" yüksəldir.
Nəsir gündə dua edir,
Çiçəklən, can Azərbaycan.

## Xocalı tarixin yaddaşındadı

Bir namərd gör nələr yazdı tarixə,
Nə ölənin sayı var, nə də itginin
Qaranlıqda haraya bax, səsə bax
Qırdı qadınını, qocasını, uşağını millətin.

Güllələr çaxıldı insan başına,
Cavandı, qocadı baxmaz yaşına
O, heykəl quraraq qan yaddaşıma
Soyqırım oyunun açdı başıma!

O, qarlı, boranlı qış gecəsində,
Güllədən yurdumda şamlar yandırdı
O, qanlı fevralın iyirmi altısında
Onlarla körpənin qəlbin durdurdu.

Bu azmış cəlladın gözü doymadı
Yurduma od vurub külə döndərdi.
Namərd daş üstündə daş da qoymadı,
Vətəndən vətənə qaçqın göndərdi.

Xocalı övladı, ey namərd, sənə
Bir vaxtlar duz verdi, çörək yedirdi.
Sənə dost deyərək basdı köksünə
Mərhəmət göstərib isti ocaq verdi.

Budurmu cavabın duz-çörəyimə
Namərd, soyqırıma uğratdın bizi.
Sən xəncəri basıb düz ürəyimizə
Bizə xatırlatdın öz səhvimizi!

Bəli, sənlə dostluq səhvimiz imiş
Sənlə kəsdiyimiz duz-çörək haram!
Qəlbimə soxduğum mar, ilan imiş
Nankor çıxdığına, alışıram, yanıram!

Namərd, sən o gecə bir tarix yazdın.
Al qana bələdin bəyaz qarları,
O gecə dostluğa bir məzar qazdın
Nizədən keçirdin günahsızları.

Minlərlə insanın qanına batdın,
Məhv etdin ananı bətnində uşaq
Tarixə yenə bir soyqırım yazdın,
Özündə şir görən, tülküdən qorxaq!

Xocalı tarixin yaddaşındadı,
Kimsə soyudammaz nifrətimizi.
Xocalı yurdumun hər daşındadı:
Namərd, yaxşı dinlə sözlərimizi:
Dinə gəl, sülhə gəl, barışığa gəl.
Mənə gərək deyil o murdar qanın.
Yox desən, onda yaxın gəl
Göstərək bucağın sənə dünyanın!

**Məmmədağa Şiriyev**
**Masallı Rayom Veteralar Təşkilatının sədri, Qarabağ müharibəsi veteranı**

## Mən Türkəm

Mən türkəm, damarımda
al qırmızı qanım var.
Vətənimçün fəda olan
ürəyim var, canım var.
Mən türkəm, candan əziz
millətim var, elim var.
Tarixlərdə iz qoyan
əzəmətli dilim var.
Mən türkəm, məni görcək
düşmənlərim tir-tir əsir.
Yenə türkə diz çökməyə
yaltaqlıq üçün tələsir.
Mən türkəm, qoy torpağım
alsın məni qoynuna.
Hər bir türk arzu edər,
şəhid desinlər ona.

***Əliyev Mahmud***

## Əmək və müharibə veteranı Ağabəy Dadaşov

**D**adaşov Ağabəy Şirinbəy oğlu 9 may 1917-ci ildə Astara rayonunda Talış dağlarının ətəklərində yerləşən Şüvi kəndində anadan olmuşdur. Bu kənd təkcə Astaralılar üçün deyil, həm də bütün Azərbaycan üçün sevinc və qürur yeridir. Bu kənd Böyük Vətən müharibəsi qəhrəmanı, üç şöhrət ordenli Ağahəsən Nəhmətov, Milli Qəhrəman Yalçın Nəsirovun anadan olduğu kənddir.

Ağabəy Dadaşov Şüvü kənd məktəbinin 7-ci sinifini bitirmişdir. Müharibəyə 1941-ci ilin avqust ayında getmişdir. Oktyabr 1942-ci ildə 2-ci Ukrayna cəbhəsinin tərkibində alman faşistlərinə qarşı döyüşdə ağır yaralanmış, uzun müddət hospitalda yatmışdır. O, əlil kimi hərbi xidmətdən təxris olunaraq doğma kəndinə qayıtmış və kolxozda fəhlə işləmişdir. Bir müddət sonra Kijəbə kənd sovxozunda təsərrüfat müdiri işləmişdir. Ağabəy Dadaşov 1947-ci ildə ailə həyatı qurmuşdur. 1 oğlu (oğlu vəfat etmişdir) 5 nəvəsi, 13 nəticəsi, 4 kötükcəsi vardır. O, 1983-cü ildə pensiyaya çıxmışdır. Müharibə dövründə "Qələbəyə görə", Qələbənin 10, 30, 50, 60, 70 illik yubiley medalı, "Rəşadətli əməyə görə" və bir çox fəxri fərmanlarla təltif olunmuşdur. 9 may 2015-ci ildə Ağabəy Dadaşovun 98 yaşı tamam olmuşdur. Doğum günü münüsibətilə ona rayon İcra Hakimiyyəti başçısının təbrik məktubu və hədiyyə təqdim edilmişdir. Tədbirdə Rayon Veteranlar Təşkilatının sədri, RİH aparatının şöbə müdiri, ərazi icra nümayəndəsi və bələdiyyə sədri iştirak etmişdir. 2017-ci ildə Ağabəy Dadaşovun 100 illiyini təntənəli şəraitdə qeyd edəcəyik. O, Böyük Vətən müharibəsi iştirakçısı olaraq Respublika Prezidenti İlham Əliyev cənablarının həyata keçirdiyi uğurlu siyasəti hər



bir müharibə veteranı kimi dəstəkləyir.

***Rafiq Əliyev,***
***Astara Rayon Veteranlar Təşkilatının sədri***

## Cənnət anaların ayaqları altındadır (Məhəmməd Peyğımbər S.A.S)

Məqaləni Peyğəmbərin məhz bu kəlamı ilə başlamağımız səbəbsiz deyildir. Belə ki, əksər hallarda Azərbaycanda qadınların hüquqlarının pozulmasını yanlış olaraq bizim müsəlman, dinimizin islam dini olması ilə əlaqələndirirlər. Lakin, İslam dini kifayət qədər məlumata malik olanlar bilirlər ki, əslində Qərbin XX əsrdə qadına verdiyi hüquqları İslam dini müsəlman qadınına on dörd əsr bundan əvvəl vermişdir.

Ötən əsrlərdə məzlum vəziyyətdə yaşamış və ancaq bəhrələnmə vasitəsi olmuş qadınların həyat tərzini öyrənmək çox acınacaqlı və kədərlidir. İslam dini qəbul edilməzdən əvvəlki dövrlərdə qadınlar son dərəcə geridə qalmış adamlar içərisində ən kiçik insan hüquqlarından belə istifadə edə bilməmiş, qeyd-şərtsiz öz ərlərinə tabe olmuş, qadınlardan ancaq cinsi tələbatların ödənilməsi üçün istifadə edilmiş, onlarla bir ticarət əmtəəsi kimi davranılmışdır. Bütpərəst ərəblər isə ailədi qız uşağının dünyaya gəlməsini bədbəxtlik saymış, qadınları az xeyir verən məxluqlar hesab etmiş, hətta qız uşaqlarını diridiri torpağa basdırmışlar. Qadınlar qeyri-mədəni dövlətlərdə olduğu kimi, qədim dövrlərin İran, Roma, Misir, Çin, Hindistan və digər mütərəqqi və mədəni ölkələrində də lazımi həyat şəraitinə malik olmamış, daima alşaldılmış və təhqir edilmişdir.

Belə bir dövrdə meydana gələn İslam dini və onun böyük Peyğəmbəri qadına zülm edən cəhalətə qarşı çıxdı, qadınları köləlikdən xilas etdi, qadınlara şahid kimi çıxış etməyə imkan verdi, mirasdan qadınlara pay ayırdı və Ulu Tanrının göstərişinə müvafiq olaraq qadınların kişilərlə bərabər hquqlara malik olduqlarının çəkinmədən bəyan etdi:

"Kişilərin və qadınların hər biri bərabər hquqlu olub, öz mallarına və sərmayələrinə malikdirlər. Qadınların bütün irsi, peşə və ticarət malları onların özlərinə məxsusdur, onlar qanunla icazə verilmiş hət bir vaxtda həmin mallardan istifadə edə bilərlər. Heç bir şəxsin müdaxilə etməsinə icazə verilmir". (Nisa surəsi, 32-ci ayə).

İslamda həmçinin qadının ictimai-siyasi sahələrdə, dövlət işlərində iştirakı, onun mülkiyyət hüququ təsbit edilmişdir. Peyğəmbər (S.A.S) qadınların hökumətin ictimai-siyasi hadisələrdə iştirakını buyurmuşdir. Həzrəti Fatimənin ictimai-siyasi hadisələrdə iştirakı qadının İslam quruluşunda böyük və danılmaz rolunu göstərir.

İslam dini elm və təhsil mövzusunu lazımınca dəyərləndirərək ictimai-siyasi, elmi və mənəvi qapıları qadınların üzünə açmışdır. Belə ki, qadına təhsil almaq, ictimai-siyasi fəaliyyətlə məşğul olmaq hüququ verilmişdir. Elm və bilik insan (istər qadın, istər kişi) üçün əbədi həyatın bünövrəsi olmaqla qadınların və kişilərin ailədə öz məsuliyyət və vəzifələrinin müəyyənləşdirilmələrinə səbəb olur. İslam nöqteyi nəzərindən kişilərin qadın üzərində üstünlüyə malik olaraq öz mövqeyindən sui-istifadə etməsi, qadına qarşı cahilliyə və ədalətsizliyə yol verməsi qətiyyən qəbul edilmir. Çox təəssüf ki, hal-hazırda Azərbaycanda qadınların təhsil almasına mane olanlar hələ də var.

İslamda qızların izdivac məsələsində atalara müəyyən hüquqlar verilsə də, onlar bu sahədə əlahiddə hüquqlara malik deyillər. Belə ki, heç bir atanın qızının razılığı olmadan onu ailə qurmağa məcbur etməyə, hər hansı bir şəxsə ərə verməyə ixtiyarı yoxdur. İslama dair kitablara nəzər salsaq, görərik ki, Peyğəmbər (S.A.S) kimi bir şəxs qızı Fatimənin izdivacı barədə şəxsən özü qərar qəbul etməmiş, əskinə bu məsələdə onun razılığını vacib hesab etmişdir. Peyğəmbərimiz (S.A.S) bu əməli ilə bütün İslam cəmiyyətinə və dünya insanlarına azadlıq dərsi verir. Buradan belə nəticəyə gəlirik ki, qızlar həyat yoldaşının seçilməsində də azaddırlar. Qızın razılığı nikahın başlıca şərti kimi irəli sürülür. Onların razılığı olmadan bağlanmış nikah isə İslam aləmində günah hesab edilir. Bütün bunları nəzərə alaraq, valideynlər xüsusilə belə bir məsələdə övladlarını sərbəst buraxmalı, məsələni hərtərəfli onlara izah etməklə, son qərarın qızlar tərəfindən qəbul edilməsinə imkan verməlidirlər. Dinimizə görə valideynlər övladlarının maliyyə, ticarət və mülkiyyət, nikah məsələrində yalnız məsləhət vermə

## İslamda Hüquq

hüququna malikdirlər, heç bir halda onların hüuqlarını məhfuflaşdıra bilməzlər.

Qadınların iş fəaliyyətinə gəldikdə isə müqəddəs İslam dini işləməyən qadın və kişiləri özünün düşməni hesab edir və belə insanların heç vaxt ictimai və dini dəyərə malik olmadıqlarını bəyan edir. Müqəddəs dinimizdə göstərilir ki, dünyada yaşayan insanların yarısını qızlar və qadınlar təşkil etdiyindən onlar da cəmiyyətin inkişaf etməsi və ailə rifahının yaxşı olması naminə münasib sahələrdə mütləq fəaliyyətini göstərməlidir. Ailədə qadın və kişi müştərək məsuliyyət daşıdığından, ailə qadınla kişi arasındakı münasibətlərdən asılı olduğundan, yalnız bir tərəfin səyi ilə nəyəsə nail olmaq qeyri-mümkün olduğundan onların hər biri tam məsuliyyətlə çalışmalıdırlar. İnkişaf etmiş ölkələrə nəzər salsaq görərik ki, həmin ölkələrin sənaye və iqtisadi inkişafı məhz qadınla kişilərin birgə fəaliyyəti nəticəsində baş vermişdir.

Bir İslam övladı və müsəlman qadını kimi Azərbaycan xanımı öz hüquqlarını bilməli, qorumalı, elm və mərifətə yiyələnməli və ən başlıcası Allaha yaxınlaşmaq kimi mühüm və nəcib məsələdə hər kəsə nümunə olmalıyıq.

"Qadınlarla pis dolanmayın, Alladan qorxun". (Məhəmməd Peyğəmbər S.A.S)

***Vüsalə Hüseynova***
***Respublika Veteranlar Təşkilatının hüquqşünası***

## Şam ağacı qozası soyuqdəyməni, bronxiti, insultu müalicə edir

***Təzə şam ağacı qozaları qədim zamanlardan sinqa (diş əti xəstəliyi), vərəm, bronxit, soyuqdəymə, oynaq xəstəlikləri zamanı geniş istifadə olunurdu.***

Şam qozası fitonsid maddələrlə olduqca zəngindir. Bu maddələr orqanizmə güclü iltihab və mikrob əleyhinə təsir edir, immun sistemini gücləndirir.

Bundan əlavə şam ağacının qozalarında çox nadir və qiymətli "tanin" maddələri var. Bu maddələr insult zamanı beyin hüceyrələrinin ölməsini xeyli ləngidir. Şam ağacı qozalarının bu nadir xüsusiyyətini Amerika alim-



ləri aşkar ediblər. İnsult zamanı və insultdan sonra insanın beynində hüceyrələr çox sürətlə ölür ki, bu da müxtəlif və çox ciddi pozulmalara səbəb olur. Belə ki, statistikaya görə, insult keçirmiş insanların 1/3 hissəsi ölür, 1/3 hissəsi əlil qalır və ətrafdakıların daimi köməyinə möhtac olur, digərlərində müxtəlif nitq, yaddaş və s. ciddi pozulmalar inkişaf edir.

Amerika alimləri siçanlar üzərində çox sayda eksperiment aparıblar. Eksperiment zamanı məlum olub ki, şam ağacı qozasının tərkibində olan tanin maddələrini qəbul edən siçanlarla bu maddələri qəbul etməyən siçanlar arasında bir sıra fərqlər aşkara çıxıb. Belə ki, tannin maddələrini qəbul edən siçanlarda insultdan sonra beyin hüceyrələrinin xeyli hissəsi salamat qalıb.

Şam ağacı qozasından dəmləmə hazırlamaq üçün 5 təzə qoza götürülür, yaxşı yuyulur, doğranılır, üzərinə 1/2 l qaynar su əlavə olunur, vam xodda 5 dəqiqə ərzində qızdırılır. Dəmləməni soyudun və gün ərzində 2 dəfə stəkanın 1/4 hissəsi olmaqla qəbul edin.

Belə dəmləməni insultdan sonra və insultun profilaktikası məqsədi ilə, bronxit, soyuqdəymə zamanı qəbul etmək olar.

Dəmləməni qəbul etməzdən əvvəl mütləq həkimlə məsləhətləşin. Bəzi xəstəliklər zamanı bu dəmləmənin qəbulu əks təsir göstərə bilər.

## İltihabəleyhinə təbii çay

Bu meyvəni "şimal limonu" adlandırırlar. Zirinc bir çox faydalı xüsusiyyətlərə malikdir:

-İltihab əleyhinə təsir edir.



-Mikrobları öldürür.
-İmmun sistemini möhkəmləndirir.
-Arterial təzyiqi aşağı salır.
-İştahanı artırır.
-Qanda şəkərin səviyyəsini aşağı salır.
-Orqanizmə şiş əleyhinə təsir edir.
-Revmatik ağrıları azaldır.

Zirinc çayı hazırlamaq üçün 1 çay qaşığı quru zirinc 1 stəkan qaynar suda 30 dəqiqə ərzində dəmlənilir və gün ərzində 2 dəfə 1/2 stəkan olmaqla yeməkdən əvvəl içilir. Çaya 1 çay qaşığı bal əlavə etdikdə onun faydalı xüsusiyyətləri daha da artır. Bu çayı soyuqdəymə xəstəlikləri, angina, revmatik ağrılar zamanı qəbul etmək yaxşıdır.

## Qəhvə qara ciyər sirrozundan qoruyur



***Bir müddət bundan əvvəl qəhvə "ziyanlı" içki sayılırdı və bütün dünyada sağlam qidalanmanın tərəfdarları bu içkidən imtina edirdilər.***

Qəhvəni hətta siqaret və spirtli içkilərlə bir sıraya qoyurdular. Lakin son araşdırmalar sübut edib ki, qəhvənin qəbulu bir çox xəstəliklərin (Altsheymer xəstəliyi, piylənmə, şəkərli diabet, hətta xərçəng) riskini azaldır.

Medical News Today xəbər verir ki, Sauthempton Universiteti (İngiltərə) alimləri araşdırmalar nəticəsində belə qərara gəliblər ki, qəhvə həmçinin insanı qara ciyər sirrozundan da qoruyur.

Alimlər 1990-2015-ci illərdə aparılan 9 elmi araşdırmanı analiz ediblər. Bu araşdırmalarda 423 mindən çox insan iştirak edirdi.

Məlum olub ki, qəhvə içən insanlarda qara ciyər sirrozunun inkişafı riski bu içkini qəbul etməyən insanlarla müqayisədə 2 dəfə azdır.

Alimlər belə hesab edir ki, bunun səbəbi qəhvənin tərkibində olan faydalı birləşmələrdədir. Bu birləşmələr güclü antioksidant və iltihab əleyhinə təsirə malikdir.

Beləliklə, qəhvə hepaprotektor (qara ciyəri qoruyan) məhsullarının siyahısına daxil edilib.



## Bu qidalar Altsheymer xəstəliyinin riskini azaldır



***Altsheymer xəstəliyi bəzi beyin hüceyrələrinin məhv olması ilə nəticələnən, dəqiq səbəbləri bilinməyən nevroloji bir xəstəlikdir.***

Bu ağır xəstəliyin müalicəsi yoxdur. Xəstəliyin gecikmiş mərhələlərində xəstə ətrafdakıları tanımır, hətta öz adını və kim olduğunu unudur, elementar bacarıqları (yemək yemək, paltar geyinmək və s.) itirir.

Raşa Universiteti (ABŞ) alimləri aşkar ediblər ki, balıq və dəniz məhsullarının (krevet, kalmar, dəniz yosunları və s.) qəbulu bu ağır xəstəliyin inkişafı riskini xeyli azaldır. Alimlər həmçinin qeyd edirlər ki, balıq yağı prepartalarının qəbulu bu riski azaltmır.

Medical Daily xəbər verir ki, alimlər 2004-2013-cü illərdə dünyasını dəyişmiş yaşlı insanların beyin toxumalarını analiz ediblər. Analiz göstərib ki, həftədə heç olmasa 1 dəfə balıq və dəniz məhsullarını yeyən insanların bu məhsulları yeməyən insanlarla müqayisədə beyin toxumasında Altsheymer xəstəliyinə işarə edən dəyişikliklərə daha az rast gəlinirdi.

Alimlər belə hesab edirlər ki, Altsheymer xəstəliyinin riskini azaltmaq üçün insan həftədə ən azı 2 dəfə balıq və dəniz məhsullarını yeməlidir.

## Mikroinsult. Orqanizm xəbərdarlıq edir!

***Mikroinsultun simptomları insultun simptomlarına bənzəyir.***

Lakin insultdan fərqli olaraq mikroinsultun simptomları daha zəif olur və adətən yalnız bir neçə dəqiqə ərzində davam edir. Mikronsult insanın sağlamlığına geriyədönməz ziyan vurmur.

Mikroinsultun səbəbi beyinin kiçik damarlarının trombla tutulmasıdır. İnsult zamanı tromb iri damarlardan birini və ya bir neçəsini tutur və bu səbəbdən beyinin hər hansı hissəsi ölür. Mikroinsult zamanı kiçik damarlar tutulur ki, qandövranı tez bərpa olunur və beyinə ciddi ziyan vurulmur.

Mikroinsult ciddi xəbərdarlıqdır. Mikroinsult keçirmiş hər üçüncü insanda sonradan insult inkişaf edir. Həm də bu insanların yarısında insult mikroinsultdan sonra 1 il ərzində baş verir. Mikroinsult keçirmiş insan mütləq həkimə müraciət etməli və müalicə almalıdır ki, gələcəkdə insultun inkişafının qarşısı alınsın.

Mikroinsult hiyləgər pozulmadır. Onun simptomları çox tez keçir və insan bunlara fikir verməyə bilər. Lakin bu yolverilməzdir. Mikroinsultun simptomlarını bilmək çox vacibdir:

- zəiflik, halsızlıq, yuxululuq, üzdə, qolda və ya ayaqda keyimə
- nitqin pozulması
- bir və ya iki gözdə ani korluq və ya ikili görmə
- baş gicəllənməsi, qəfil baş ağrısı
- müvazinətin və koordinasiyanın pozulması.

Bu simptomlar bir neçə dəqiqə ərzində davam edə bilər. Lakin insan buna mütləq fikir verməli və dərhal həkimə müraciət etməlidir.



İlk növbədə xəstə tomoqrafiyadan keçməlidir. Tomoqrammada pozulma çox aydın görünür. Daha sonra xəstəyə müalicə təyin olunur.

Gələcəkdə insultun inkişafının qarşısını almaq üçün insan öz sağlamlığına ciddi fikir verməlidir - arterial təzyiqinə və qanda şəkərin səviyyəsinə daim nəzarət etməli, düzgün qidalanmalı, spirtli içkilərdən və siqaret çəkməkdən imtina etməli, fizki aktivliyini artırmalıdır.

Mikroinsultdan sonra xəstə müəyyən müayinələrdən keçməlidir. Müayinə zamanı damarlarda ciddi pozulmalar aşkar olunduqda xəstəyə cərrahi müalicə təyin oluna bilər.

**Səhifəni hazırladı: Xumar Əfəndiyeva**

**Hörmətli oxucular!**

**Yanvar ayından etibarən qəzetimiz yalnız abunə olan şəxs və təşkilatlara göndəriləcəkdir. Həmçinin siz "Azərbaycan Veteranı" qəzetini köşklərdən əldə edə bilərsiniz. Sizdən "Azərbaycan Veteranı" qəzetinə abunə olmağınızı xahiş edirik.**

**Hesab nömrəsi: AZ33IBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 6AZN**
**1 illik abunə haqqı - 12 AZN**

**Qeyd: Əziz oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Respublika Veteranlar Təşkilatına və təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiz.**

**Əlaqə telefonları: (012)440-21-08; (012)497-63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
***Məsul katib***
*Xumar ƏFƏNDİYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti "Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:*** *1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kovereçkin küçəsi 34*
***Əlaqə telefonu:*** *012 440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda 2 dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur*
*Tiraj: 850*